# KÖNÜLLÜLƏRLƏ GÖRÜŞ

Gəncə Dövlət Universitetinin 2-ci tədris binasının iclas zalında "Bakı-2015" birinci Avropa Oyunlarında könüllü kimi iştirak etmiş tələbələrlə universitet rəhbərliyinin görüşü olmuşdur. Könüllü tələbələri salamlayan universitetin rektoru professor Yusif Yusifov qeyd etdi ki, birinci Avropa Oyunlarının doğma vətənimizdə keçirilməsi tarixə qızıl hərflərlə və şərəflə yazılan hadisələrdəndir. Biz bununla xalqımızın iqtisadi qüdrətini, ölkəmizdə ictimai-siyasi sabitliyi, milli ənənələrimizi, yüksək mənəvi keyfiyyətlərimizi, sülh, əmin-amanlıq tərəfdarı olduğumuzu bir daha dünyaya çatdırmış olduq. Prezident cənab İlham Əliyev "Bakı-2015" birinci Avropa Oyunlarında qalib idmançılarımızla, onların məşqçiləri, idman ictimaiyyətinin nümayəndələri və xarici tərəfdaşlar ilə görüşdəki çıxışında məhz oyunlarda iştirak etmiş, ümumilikdə 20 minə yaxın könüllünün əməyinə xüsusi qiymət və dəyər verdi. Eyni zamanda, Azərbaycanın birinci xanımı, ilk Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban xanım Əliyeva da möhtəşəm tədbirin bağlanış mərasimində könüllülərə təşəkkür etməyi xüsusilə vurğuladı. Bizim üçün sevindirici haldır ki, həmin könüllülər dəstəsində universitetimizin tələbələri də iştirak etməklə dəyərli zəhmətləri, nümunəvi davranışları ilə ünvanımıza gələn xoş sözlərin səbəbkarı oldular.



Professor Yusif Yusifov könüllülərə öz təşəkkürünü, səmimi sözlərini bildirməklə bərabər, fəaliyyətləri ilə ən çox fərqlənən tələbələrə Azərbaycanın gənclər və idman naziri, "Bakı-2015" birinci Avropa Oyunları Əməliyyat Komitəsinin baş icraçı direktoru Azad Rəhimovun imzaladığı sertifikatları və rektorluğun fəxri fərmanlarını təqdim etdi. Xarici dillər fakültəsinin tələbələrindən Pərvanə Ələkbərova və Ləman Rzazadə, biologiya-kimya fakültəsinin tələbəsi Mətləb Allahverdiyeva, pedaqoji fakültənin tələbəsi Günel Əhmədova öz çıxışlarında könüllülər dəstəsində iştirak etdikləri müddətdə onlara göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirərək bundan sonra da öz fəaliyyətləri ilə Universitetin şərəfini ləyaqətlə qoruyacaqlarını, onlara göstərilən qayğıya layiqli cavab verəcəklərini vurğuladılar.

**Zabit XƏLİLOV,**
**"Respublika".**